

RƏHMAN BAYRAM

## MİNGƏÇEVİR

*70 yaşın mübarək,doğma şəhərim!*

Cəmisi on beş il oldum qonağın,
Sən necə gözəlsən, ay Mingəçevir.
Hopubdur ruhuma suyun, torpağın,
Vüqarın Kür kimi çay, Mingəçevir,
Sən necə gözəlsən, ay Mingəçevir.

Sən yaşıl libaslı ismətli gəlin,
Ana Kür aynandır, söyüdlər telin,
Açılır qışda da çiçəyin, gülün,
Tapılmaz hüsnünə tay, Mingəçevir,
Sən necə gözəlsən, ay Mingəçevir.

Söykənib küreyin möhtəşəm dağa,
Kür səni çevirib bir cənnət bağa,
Sənə könül verib, sevən qonağa
Verərsən köksündən pay, Mingəçevir,
Sən necə gözəlsən, ay Mingəçevir.

Şıltaq dəli Kürü salmısan bəndə,
Nurundan pay düşür şəhərə, kəndə,
Bu qədər hərarət hardandı səndə?
Qışda da olursan yay, Mingəçevir,
Sən necə gözəlsən, ay Mingəçevir.

Çıxanda gəzməyə bir axşam çağı,
Oxşayar ruhunu Kürün qırağı,
Yenə yada düşdü cavanlıq çağı,
İçmişəm sahildə çay, Mingəçevir
Sən necə gözəlsən, ay Mingəçevir.

Bir torpaq dərdim var, sağalmamışam,
Rəhmanam, üzünə ağ olmamışam
Nə olsun ki, səndə doğulmamışam,
Məni də övladın say, Mingəçevir,
Sən necə gözəlsən, ay Mingəçevir.

## AD GÜNÜN MÜBARƏK

*Qızım Şəbnəmə*

Bahar Şəbnəmitək gülür gözlərin,
Qəlbin atəşidir yanır gözündə.
Şəlaləyə bənzər qara zülflərin,
Tər lalə rəngi var gülər üzündə.

Şan-şöhrət hərisi olma dünyada,
Çalış el içində artsın hörmətin.
Namusu uca tut çətin anda da,
Namus zinətidir saf məhəbbətin.

Atan bu sözləri demir boş yerə,
Məqsədsiz bir işə başlama, qızım.
Sev, eşqinin ətri hopsun güllərə,
Kimisə var üçün xoşlama, qızım.

## ÜÇRƏNGLİ BAYRAĞIM MƏNİM

Tükənməyən məhəbbətim,
Alçalmayan ləyaqətim,
Dosta ülfət, sədaqətim,
Düşmənə göz dağım mənim,
Üçrəngli bayrağım mənim.

Göy rəng azadlıq siması,
Qırmızı türkün dünyası,
Yaşılda Quran sədası,
Ey müqəddəs çağım mənim,
Üçrəngli bayrağım mənim.

Neçə şəhid veribdi can,
Sən varsan,var Azərbaycan.
Dalğalan, sən, hey dalğalan,
Sönməyən çırağım mənim,
Üçrəngli bayrağım mənim.